# Milli qürurumuzun ən yüksək təcəssümü




## “Konstitusiya və Suverenlik ili”

## 2025-ci il

**2025-ci il xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinin iki mühüm zirvəsinin - 1995-ci ildə qəbul edilmiş Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının 30 illik yubileyinin və Vətən müharibəsindəki tarixi Qələbəmizin 5 illiyinin - eyni vaxta təsadüf etməsi əlamətdardır. Bu iki möhtəşəm hadisə, millətimizin azadlıq eşqini və qürurunu simvolizə edərək bizi keçmişin sərt sınaqlarından gələcəyin işıqlı zirvələrinə doğru aparır. Bu, hər bir azərbaycanlının qəlbində vətənpərvərlik hissini daha da alovlandırır, bizi bir millət olaraq daha sıx birləşdirir.**

Konstitusiya aktı azadlığın qarantı, dövlətçiliyin ruhunu yaşadan müqəddəs sənəddir. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası müstəqilliyimizin ilk illərinin çətin və keşməkeşli dövründə dövlət quruculuğunun təməl daşı oldu. Bu fundamental hüquqi sənəd sadəcə qanunlar toplusu yox, əsrlər boyu xalqımızın azadlıq ruhunun, milli kimliyimizin və gələcək inkişaf hədəflərimizin parlaq əksidir. Konstitusiya hər bir vətəndaşın hüquq və azadlıqlarını qoruyaraq, dövlət idarəçiliyinin ədalətli və şəffaf prinsiplərini təmin edir. Bu, hər bir azərbaycanlının sabaha olan inamının möhkəm bir bünövrəsini yaradaraq ölkəmizin gələcək inkişafının əsasını qoyur. Konstitusiya vətəndaşların dövlət qarşısındakı mənəvi məsuliyyətini də özündə ehtiva edir. Hər bir azərbaycanlı öz hüquqlarını qorumaqla yanaşı, dövlətin qanunlarına, onun ali dəyərlərinə sonsuz hörmət bəsləməli, ölkənin inkişafına öz dəyərli töhfəsini verməlidir. Bu, hər birimizin gələcəyinin və ölkəmizin firavanlığının qarantıdır. Konstitusiya dövlətin əsas vəzifələrini müəyyən edərək vətəndaşların hüquqlarını qorumağı və ölkənin davamlı inkişafını təmin edir.

Vətən müharibəsində qazanılan möhtəşəm Qələbə Azərbaycan xalqının yenilməzliyinin, milli iradəsinin və özünəinamının əbədi himnidir. Bu tarixi Zəfər işğal altında olan torpaqlarımızın azad edilməsi ilə yanaşı, xalqımızın birlik və həmrəyliyini öz suverenliyinə olan sarsılmaz inamını bütün dünyaya bir daha bəyan etdiyi şanlı hadisədir. Suverenlik əsrlər boyu ruhumuzda yaşayan azadlıq, milli kimliyimizin ayrılmaz hissəsidir. Bu, eyni zamanda öz torpaqlarımızın sahibi olduğumuzu qürurla dünyaya bəyan etməkdir.

Vətən müharibəsində qazanılan parlaq qələbə Azərbaycanın beynəlxalq arenada müstəqil siyasət yürütmək, öz milli maraqlarını qorumaq və dünya birliyində öz layiqli yerini tutmaq hüququnu bir daha qətiyyətlə təsdiq etdi. Qarabağ Zəfəri, ölkəmizin beynəlxalq nüfuzunu artırdı, xalqımızın əyilməz iradəsini bütün dünyaya nümayiş etdirdi.

"Konstitusiya və Suverenlik İli" xalqımız üçün yeni bir tarixi zirvə, Azərbaycanın yeni zirvələrə doğru yüksəliş ilidir. Bu il çərçivəsində keçiriləcək genişmiqyaslı mədəni, elmi, təhsil və ictimai tədbirlər vasitəsilə Konstitusiyanın və suverenliyin əhəmiyyəti geniş ictimaiyyətə çatdırılacaq, gənclərimizdə vətənpərvərlik hissi güclənəcək və milli birliyimiz daha da möhkəmlənəcək.

Bu il, həmçinin ölkəmizin davamlı inkişafı, iqtisadiyyatın gücləndirilməsi, sosial rifahın yüksəldilməsi, elmin və təhsilin inkişafı, mədəniyyətimizin zənginləşdirilməsi və digər mühüm sahələrdə yeni, iddialı layihələrin və təşəbbüslərin həyata keçirilməsinə güclü təkan verəcək. Hər bir azərbaycanlının öz potensialını tam şəkildə ortaya qoyması üçün əlverişli mühit yaradacaq.

Azərbaycan xalqı üçün yeni bir başlanğıc olan "Konstitusiya və Suverenlik İli"ndə daha da qüdrətli, daha inkişaf etmiş və daha xoşbəxt bir gələcəyə doğru birgə, əzmlə addımlayaq. Hər birimiz öz üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirərək, bu tarixi anı qiymətləndirək.

Arzularımız bizi hər zaman yüksəklərə, parlaq zirvələrə doğru aparsın.

**İlahə ALLAHVERDİYEVA.**

Respublika .- 2025.- 17 aprel (№ 75).- S.8.